

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 118 (23.280)

29 iyun 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilmişdir





İyunun 28-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilmişdir:

1. 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

Gündəlikdə duran birinci məsələ ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev demişdir ki, görülmüş tədbirlərin nəticəsində muxtar respublikada aqrar sahənin inkişafı təmin edilmiş, 2019-cu ildə 27 min 231 hektar sahədə yazlıq əkin keçirilmiş, cari ilin məhsulu üçün 33 min 308 hektar sahədə taxıl əkilmişdir. Hazırda muxtar respublikada taxıl biçini davam etdirilir. Bu il tədarük məntəqələri məhsul istehsalçılarından buğdanın hər kiloqramını 35, arpanın hər kiloqramını 30, qarğıdalının isə hər kiloqramını 40 qəpikdən qəbul edir. Muxtar respublikada tütünçülüyün də inkişafına diqqət artırılmış, 50,5 hektar sahədə tütün əkilmiş, 317,2 hektar sahədə meşəsalma, meşəbərpa və toxumla əkin aparılmışdır. 2019-cu ilin ötən dövründə kənd təsərrüfatının inkişafı ilə bağlı banklar tərəfindən 4 milyon 789 min 600 manat kredit verilmiş, məhsul istehsalçıları 7079 ton mineral gübrə ilə təmin olunmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada 133 milyon 73 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal edilmiş, ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,2, süd istehsalı 1,5, yun istehsalı 1,6, yumurta istehsalı 1,3 faiz artmışdır. Kənd təsərrüfatının dinamik inkişafı ixracın həcminə də müsbət təsir göstərmiş, nəticədə, bu ilin 6 ayında muxtar respublika üzrə 40 milyon 359 min Amerika Birləşmiş Ştatları dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov çıxış edərək demişdir ki, 2019-cu ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 64 milyon 357 min manat həcmində inşaat işləri yerinə yetirilmişdir ki, bunun da 60 milyon 751 min manatını və ya 94,4 faizini tikinti-quraşdırma işləri təşkil etmişdir. Bəhs olunan dövrdə Şərur rayonunun Kərimbəyli, Ordubad rayonunun Dəstə kəndlərində tam orta məktəb binaları, Naxçıvan şəhərində uşaq bağçası və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün tədris kompleksi istifadəyə verilmişdir. Şərur Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmiri və Şərur Rayon Uşaq Xəstəxanasının yenidən qurulması, Kərimbəyli kəndində və Ordubad rayonunun Dəstə kəndində həkim ambulatoriyalarının tikintisi başa çatdırılmışdır. Həmçinin bu dövrdə Şahbuz Rayon Mədəniyyət Sarayı istifadəyə verilmişdir. Hazırda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin, eləcə də 6 tam orta məktəb binasının və 1 musiqi məktəbinin tikintisi, 3 məktəb binasının isə yenidən qurulması davam etdirilir. Həmçinin muxtar respublikada 4 həkim ambulatoriyası, 10 xidmət və 11 kənd mərkəzi tikilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov demişdir ki, 2019-cu ilin 6 ayında sosial-iqtisadi həyatın bütün sahələri üzrə inkişaf istiqamətləri qorunub saxlanılmış, müsbət irəliləyişlərə nail olunmuşdur. Bu dövrdə iqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artaraq 1 milyard 278 milyon 115 min manat olmuşdur. Ümumi daxili məhsulun 57,5 faizi və ya 734 milyon 701 min manatı istehsalın payına düşmüşdür. Hesabat dövründə bir il öncəyə nisbətən sənaye məhsulu 1,4 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,2 faiz, kənd təsərrüfatı məhsulu 2,8 faiz, informasiya və rabitə xidmətləri 3,9 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 4,6 faiz artmışdır. Hesabat dövründə bütün maliyyə mənbələri hesabına əsas kapitala 554 milyon 460 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur. Bu dövrdə muxtar respublikada tikinti və yenidənqurmadan sonra, ümumilikdə, 67 obyekt istifadəyə verilmişdir. 157 obyektin tikintisi və ya yenidən qurulması isə davam etdirilir. Bu ilin birinci yarısında muxtar respublikada 1173 yeni iş yeri açılmışdır ki, bunun da 99 faizi daimi iş yerləridir. Muxtar respublikada 219 milyon 443 min xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artaraq 191 milyon 612 min Amerika Birləşmiş Ştatları dolları təşkil etmiş, 164 milyon Amerika Birləşmiş Ştatları dollarına yaxın məbləğdə müsbət saldo yaranmışdır. Bu dövrdə muxtar respublikada əhalinin sayı artaraq 457 min nəfərdən çox olmuşdur. Yeni doğulanlarla yanaşı, müsbət miqrasiya saldosu da əhali artımına imkan yaratmışdır. Həmçinin ilin birinci yarısında muxtar respublikaya 196 min 474 turist gəlmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə etmişdir **(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur).**

Gündəlikdə duran ikinci məsələ ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini – Maliyyə naziri Səbuhi Məmmədov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin 2018-ci ildə gəlirləri 73 milyon 400 min manat təyinata qarşı 86 milyon 794 min 879 manat və ya 118,2 faiz icra olunmaqla büdcəyə 13 milyon 394 min 879 manat artıq vəsait daxil edilmişdir. Büdcə gəlirlərinin 84,3 faizi və ya 73 milyon 205 min 241 manatı Vergilər Nazirliyi tərəfindən təmin edilmiş vergi və rüsumlardan, 10,8 faizi və ya 9 milyon 378 min 630 manatı Dövlət Gömrük Komitəsi tərəfindən toplanılmış daxilolmalardan, 4,3 faizi və ya 3 milyon 743 min 409 manatı dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən, 0,6 faizi və ya 467 min 599 manatı isə digər mənbələr hesabına daxil olmuşdur. 2018-ci ildə Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 355 milyon 300 min manat proqnoza qarşı 354 milyon 466 min 625 manat və ya 99,8 faiz icra olunmuşdur. 2018-ci ildə büdcə xərclərinin 64,5 faizi və ya 228 milyon 634 min manatı cari xərclərə, 35,5 faizi və ya 125 milyon 832 min manatı isə əsaslı xərclərə yönəldilmişdir. Əsaslı vəsait qoyuluşu xərclərinin böyük hissəsi muxtar respublikada quruculuq işlərinin aparılmasına, təhsil və səhiyyə müəssisələrinin tikintisinə, eyni zamanda infrastrukturun yenilənməsi layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir. Dövlət büdcəsindən maliyyələşən müəssisə və təşkilatlar tərəfindən mal-material və avadanlıqların real dəyəri ilə satın alınmasına, büdcə vəsaitlərindən qənaətlə və səmərəli istifadəyə ciddi nəzarət olunmuş, nəticədə, 2 milyon 141 min manatdan çox vəsaitin əsassız xərclənməsinin qarşısı alınmışdır.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul edilmişdir.

Ali Məclisin Sədri 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əməyi, sabitliyin və təhlükəsizliyin qorunmasında xidməti olanlara təşəkkürünü bildirmiş, qarşıdakı dövrdə inkişafın təmin olunmasında sessiya iştirakçılarına, muxtar respublikanın hər bir sakininə uğurlar arzulamışdır.

Bununla da beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun MƏRUZƏSİ

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Bu il ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 50 ili tamam olur. Dahi şəxsiyyətin ölkəmizə birinci rəhbərliyi dövründə mühüm işlər görülmüş, 1969-cu ilin 14 iyulu Azərbaycanın inkişaf və tərəqqi tarixinə çevrilmişdir. ***"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır"***, – deyən ulu öndər ölkəmizə ikinci rəhbərliyi dövründə isə Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını və milli inkişaf konsepsiyasını yaratmış, xalqımız Milli Qurtuluşa nail olmuş, dövlətçiliyimiz və müstəqilliyimiz qorunub saxlanılmışdır.

Əsası ümummilli liderimiz tərəfindən qoyulmuş inkişaf strategiyası bu gün Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. "Ailə təsərrüfatları ili" olan 2019-cu ilin birinci yarısında da muxtar respublikada daxili imkanlardan səmərəli istifadə olunmuş, iqtisadi inkişaf təmin edilmiş, yeni istehsal və xidmət sahələri yaradılmış, iş yerləri açılmışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi qeyd edilmiş, dövlət proqramlarının uğurlu icrası, mövcud potensialdan səmərəli istifadə iqtisadiyyatı şaxələndirmiş, bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunmuşdur.

Hörmətli sessiya iştirakçıları!

Muxtar respublikanın davamlı və tarazlı inkişafı sosial-iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini zəruri edir. 2019-cu ilin ikinci yarısında da Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə işlər davam etdirilməli, makroiqtisadi sabitlik qorunub saxlanılmalıdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında işə tələbkarlıq artırılmalı, nizam-intizama əməl edilməli, qarşıya qoyulmuş vəzifələr vaxtında icra olunmalıdır. **Maliyyə Nazirliyi** büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə nəzarəti daha da gücləndirməli, etibarlı maliyyə

Ardı 2-ci səhifədə

nəzarəti sistemi formalaşdırılmalıdır. Dövlət büdcəsinin proqnoz göstəricilərinin icrası təmin edilməli, **Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi** tərəfindən bütün tədiyə növləri üzrə vergi və rüsumlar vaxtında ödənilməlidir.

Muxtar respublikada nağdsız ödənişlərin əhatə dairəsinin və həcminin artırılması məqsədilə **Vergilər Nazirliyi Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi** ilə birgə keçirilən tədbirlərin davamlılığına nail olmalıdır. Həmçinin muxtar respublika əhalisinin maliyyə resurslarına çıxış imkanları **bank və digər kredit təşkilatları** tərəfindən təmin edilməli, verilmiş kreditlərin təyinatı üzrə istifadəsinə və vaxtında qaytarılmasına diqqət artırılmalıdır.

Müasir dövrdə ailə təsərrüfatları özünüməşğulluğun təmin olunmasına və iqtisadi inkişafa mühüm töhfə verir. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi qarşıya mühüm vəzifələr qoyur. Ona görə də **İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri yerli icra orqanları** ilə birlikdə ailə təsərrüfatlarının inkişafı ilə bağlı yeni təkliflər hazırlamalı, qabaqcıl ailə təsərrüfatlarının təcrübələri yayılmalı, ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışına və ixracına köməklik göstərilməli, kreditlər verilməlidir.

Xarici ölkələrlə ticarət əlaqələrinin genişləndirilməsi iqtisadi inkişafın əsas hədəfidir. Xüsusilə idxalın həcminin azaldılması və ixrac potensialının gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. **İqtisadiyyat Nazirliyi** muxtar respublikada xarici ticarət dövriyyəsinin artan dinamikasını davam etdirməli, yerli xammala əsaslanan istehsal müəssisələri yaradılmalı, yeni investisiyaların cəlbi və təşviqi istiqamətində tədbirlər görülməlidir. İqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi üçün biznes mühiti daha da yaxşılaşdırılmalı, sahibkarlıq subyektlərinə hərtərəfli köməklik göstərilməli, istehsalın həcmi artırılmalı, daxili bazar qorunmalı, istehlak qiymətlərinə nəzarət olunmalı və süni qiymət artımına yol verilməməlidir.

**İqtisadiyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi** birlikdə ailə təsərrüfatlarında istehsal edilən məhsulların növ və çeşidlərinin artırılması istiqamətində işləri davam etdirməli, yerli istehsal və idxal məhsullarının standartlara uyğunluğuna ciddi nəzarət olunmalı, rəqabətqabiliyyətli məhsul istehsal edilməlidir.

Aqrar sektorda həyata keçirilən ardıcıl islahatların nəticəsidir ki, bu ilin məhsulu üçün muxtar respublikada 62 min hektardan artıq sahədə əkin aparılmışdır. **Kənd Təsərrüfatı Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri aidiyyəti orqanlarla** birlikdə taxıl biçininin vaxtında və itkisiz başa çatdırılması üçün bütün qüvvələri səfərbər etməli, tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının qəbulu və satışını, şəhər və rayon mərkəzlərində yarmarkaların keçirilməsini davam etdirməli, mütərəqqi əkin metodlarından istifadə və məhsuldarlığın artırılması sahəsində elmi-təcrübi tədbirlər görülməli, torpaq mülkiyyətçiləri yüksək reproduksiyalı toxumlarla təmin olunmalıdır.

**Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyətləri** əkinəyararlı torpaqların təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarəti gücləndirməli, torpaqların elektron uçotu və xəritələşdirilməsi işi vaxtında başa çatdırılmalıdır.

**Dövlət Baş Sığorta Agentliyi** muxtar respublikada sığorta işini təkmilləşdirməli, könüllü sığortanın tətbiqini və səyyar xidmətin əhatə dairəsini genişləndirməli, insanlar maarifləndirilməli, sığorta bazarında aqrar sektorun xüsusi çəkisi artırılmalıdır.

Mütərəqqi suvarma sistemlərinin tikilib istifadəyə verilməsi, anbarlarda kifayət qədər su ehtiyatının yaradılması əkin sahələrinin su təminatını yaxşılaşdırmışdır. **Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi şəhər və rayon icra hakimiyyətləri** ilə birlikdə suvarma mövsümünün mütəşəkkil keçirilməsinə nail olmalı, suvarma suyunun bölgüsünə və ondan qənaətlə istifadəyə nəzarət olunmalı, torpaqların şoranlaşmasının və eroziyasının qarşısı alınmalı, qapalı suvarma şəbəkələrinin qurulması davam etdirilməlidir.

**Dövlət Statistika Komitəsi** mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əlaqələri gücləndirməli, muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı hazırlanan aylıq və rüblük hesabatların təhlili, obyektiv və müqayisəli işlənməsinə nail olmalı, həmin məlumatlar mətbuatda dərc edilərək ictimailəşdirilməlidir.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi** isti yay günlərində yaşıllıqların və meşə fondlarının mühafizəsinə diqqəti artırmalı, ekoloji tarazlığın qorunması ilə bağlı yoxlama-reydlər, monitorinqlər və maarifləndirici görüşlər davam etdirilməlidir. **Ekologiya və Təbii Sərvətlər Nazirliyi Naxçıvan Yaşıllaşdırma Xidməti** ilə birlikdə yerli şəraitə uyğun ağac və bitki sortlarının yetişdirilməsində yeni yaradılmış "İqlim otağı"nın və tingçilik təsərrüfatlarının imkanlarından geniş istifadə etməli, sifarişlər qəbul olunmalı və tələbat yerli istehsal hesabına ödənilməlidir.

**Dövlət Baytarlıq Xidməti** heyvandarlıqda epizootik vəziyyəti nəzarətdə saxlamalı, peyvəndləmə tədbirləri vaxtında aparılmalı, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasını və süni mayalandırma tədbirlərini diqqətdə saxlamalı, kənd təsərrüfatı aptekləri tələbata uyğun dərman preparatları ilə təmin edilməlidir.

**"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti** tələbata uyğun müasir texnika və texnoloji avadanlıqların, suvarma sistemlərinin və arıçılıq ləvazimatlarının, eləcə də gübrələrin alınıb gətirilməsini və lizinq yolu ilə satışını davam etdirməlidir.

Muxtar respublikada tikinti və abadlaşdırma işlərinin həcmi ilbəil artır, aparılan quruculuq işlərində yerli materiallardan istifadəyə üstünlük verilir. **Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** ilin ikinci yarısında da ayrılmış vəsaitdən səmərəli və düzgün istifadə etməli, həyata keçirilən tikinti işlərinin keyfiyyətini, büdcə vəsaiti hesabına tikinti məhsullarının alışı zamanı qiymətlərin orta bazar qiymətlərinə uyğunluğunu nəzarətdə saxlamalı, bu istiqamətdə aidiyyəti təşkilatlarla qarşılıqlı əlaqədə işləməlidir.

Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə, yaşayış məntəqələrinin qazlaşdırılması enerji təhlükəsizliyini təmin etmiş, dayanıqlı elektrik enerjisi və təbii qaz verilişinə nail olunmuşdur. **Dövlət Energetika Xidməti və "Naxçıvanqaz" İstehsalat Birliyi** elektrik enerjisi və təbii qazın keyfiyyətlə ötürülməsini diqqətdə saxlamalı, bu zaman enerji itkisinə yol verilməməli, istismar olunan avadanlıqlara mövsümə uyğun texniki qulluq göstərilməlidir.

Muxtar respublikada yol infrastrukturunun müasirləşdirilməsi və nəqliyyat xidmətinin günün tələbləri səviyyəsində qurulması istiqamətində tədbirlər bu il də davam etdirilir, magistral və kənd yolları yenidən qurulur, sərnişindaşımanın keyfiyyəti artırılır. **Avtomobil Yolları Dövlət Agentliyi** yol tikintisində keyfiyyətə xüsusi diqqət yetirməli, **Dövlət Nəqliyyat Xidməti tərəfindən** ictimai nəqliyyatda xidmətin səviyyəsi yüksəldilməli, nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət olunmalıdır.

**Rabitə və Yeni Texnologiyalar Nazirliyi** yeni texnologiyaların tətbiqini diqqətdə saxlamalı, göstərilən xidmətlərin keyfiyyəti yüksəldilməli, maddi-texniki baza gücləndirilməli, ixtisaslı kadr hazırlığı davam etdirilməlidir.

Muxtar respublikanın inkişafında təhsil quruculuğu əsas yer tutur. **Təhsil Nazirliyi** yaradılan şəraitdən istifadə edərək tədrisin keyfiyyətini yüksəltməli, bu zaman yeni texnologiyalardan səmərəli istifadə edilməli, müəllim hazırlığı ilə bağlı innovativ təklif və layihələr dəstəklənməli, ali məktəblərin professor-müəllim heyəti ilə birgə dərslik və dərs vəsaitlərinin müzakirəsi aparılmalı, gənclərin təhsili ilə yanaşı, onların peşə sahələrinə yönləndirilməsinə də diqqət artırılmalıdır.

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi** elmi nailiyyətlərin iqtisadiyyatda tətbiqinə nail olmalı, elmi tədqiqatlar davam etdirilməli və beynəlxalq əməkdaşlıq genişləndirilməlidir.

Muxtar respublikada fəaliyyət göstərən **ali təhsil müəssisələri** ixtisaslı kadrların hazırlanmasına, gənclərin innovativ startap layihələrinə, elmi-tədqiqat işlərinə cəlb edilməsinə diqqəti artırmalı, təcrübi dərslər hami təşkilatlarda keçirilməlidir.

**Səhiyyə Nazirliyi** əhalinin sağlamlığının qorunmasına və səhiyyə maarifinə diqqəti artırmalı, həkim hazırlığı və tibbi təhsilin səviyyəsi yüksəldilməlidir. Səhiyyə müəssisələrində quraşdırılan müasir tibbi avadanlıqlardan səmərəli istifadə olunmalı, həkim və tibb işçiləri mütəmadi kurslara göndərilməlidir.

**Mədəniyyət Nazirliyi** muzeylərin, mədəniyyət abidələrinin, mədəni irsin qorunmasına və təbliğinə yönəlmiş tədbirləri davam etdirməli, tabeliyində olan müəssisələrinin fəaliyyətini günün tələbləri səviyyəsində qurmalıdır.

**Gənclər və İdman Nazirliyi** muxtar respublikada olan idman infrastrukturundan istifadəyə və onların qorunub saxlanılmasına, gənclərlə iş sahəsində fəaliyyətə diqqəti artırmalı, idman federasiyaları ilə əlaqələri gücləndirməli, yarışlar keçirilməli, idmanın kütləviliyinə nail olunmalıdır.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası sahəsində tədbirləri davam etdirməli, peşə hazırlığını əmək bazarının tələblərinə uyğunlaşdırmalıdır.

Müasir dövrdə turizm hər bir ölkənin inkişafında əsas sahə kimi götürülür. Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafı diqqət mərkəzindədir. Ona görə də **Turizm Departamenti** muxtar respublikaya turistlərin cəlbi ilə bağlı təbliğat və informasiyamaarifləndirmə işlərini davam etdirməli, internet resurslarında və sosial şəbəkələrdə Naxçıvanla bağlı materiallar yerləşdirilməli, ölkə və xarici turizm firmaları ilə əlaqələr gücləndirilməlidir.

**Dövlət Sosial Müdafiə Fondu** tərəfindən pensiyalar vaxtında ödənilməli, pensiya təyinatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada aparılmalı, əmək fəaliyyətinə yeni başlayan işçilər fərdi uçot sistemində qeydiyyata alınmalı və sosial sığorta şəhadətnamələri ilə təmin olunmalı, elektron xidmətlərin əhatə dairəsi genişləndirilməlidir.

Muxtar respublikada icbari tibbi sığortanın tətbiqi səhiyyə sahəsində aparılan islahatların tərkib hissəsi kimi əhalinin keyfiyyətli tibbi xidmətlə təminatına hesablanmışdır. **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** Şərur və Kəngərli rayonlarında icbari tibbi sığortanın tətbiqini təmin etməli, mərkəzləşmiş məlumat bazası və elektron idarəetmə sistemi təkmilləşdirilməlidir.

Muxtar respublikada aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən islahatlar bütün yaşayış məntəqələrini əhatə etmiş, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə müasir infrastruktur yaradılmışdır. **Şəhər və rayon icra hakimiyyəti orqanları** bu imkanlardan səmərəli istifadə etməli, vətəndaşlarla iş gücləndirilməli, müraciətlərə baxılmalı və müvafiq köməklik göstərilməli, abadlıq-təmizlik işlərinə nəzarət olunmalıdır.

İqtisadi inkişafın davamlı xarakter alması, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir. **Hüquq-mühafizə orqanları** bundan sonra da ictimai asayişin və sabitliyin qorunmasına diqqəti artırmalı, maarifləndirmə-profilaktika tədbirləri görülməlidir.

**Ordu, birləşmə və hərbi hissələrdə** döyüş hazırlığının artırılması, ehtiyatların qorunub saxlanması, əsgərlərin mövsümə uyğun geyim və yeməklə təmin olunması diqqətdə saxlanılmalı, Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının birgə və qarşılıqlı fəaliyyəti davam etdirilməlidir.

**Fövqəladə Hallar Nazirliyi** yanğın təhlükəsizliyinin təmin edilməsi, dəm qazından boğulma hallarının qarşısının alınması və taxıl sahələrinin biçindən sonra yandırılmaması istiqamətində maarifləndirmə tədbirlərinin səmərəliliyini artırmalıdır.

**Naxçıvan Muxtar Respublika Prokurorluğu Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları** ilə birlikdə torpaqların qanunsuz zəbt olunmasının və təyinatından kənar istifadəsinin qarşısının alınması üçün zəruri tədbirlər görməlidirlər.

**Ədliyyə Nazirliyi** məhkəmə qərarlarının vaxtında icra olunmasını diqqətdə saxlamalı, Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyətini gücləndirməli, xüsusi qaydada fəaliyyət göstərən notariusların qanunvericiliyə əməl etməsinə nəzarət edilməlidir.

**Dövlət Gömrük Komitəsi** daxili bazarın qorunması istiqamətində tədbirlərini davam etdirməli, xarici ticarət iştirakçıları olan sahibkarlıq subyektləri ilə əlaqələri gücləndirməlidir.

**Dövlət Qulluğu Məsələləri üzrə Komissiya** dövlət qulluğuna və digər orqanlara qəbul imtahanlarının dövriliyini təmin etməli, kadr hazırlığı üzrə kursların təşkilini və test bankının yenilənməsini diqqətdə saxlamalıdır.

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti** çağırışı qanunvericiliyə uyğun təşkil etməli, hərbi vəzifəlilərin qeydiyyat-uçot məsələlərinə diqqətlə yanaşmalıdır.

**Muxtar respublikanın kütləvi informasiya vasitələri** informasiya-məlumatlandırma işini günün tələbləri səviyyəsində qurmalı, Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, milli dəyərlərimiz və turizm potensialı haqqında materiallar hazırlanmalı, sosial şəbəkələrin imkanlarından səmərəli istifadə olunmalı və geniş təbliğat işləri aparılmalıdır. Mətbuat ictimai fikri istiqamətləndirməli, muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı analitik və təhlili materiallar işlənilməlidir.

Hörmətli sessiya iştirakçıları!

2019-cu ilin birinci yarısının nəticələri onu deməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət Naxçıvan Muxtar Respublikasında inkişaf dinamikasını qoruyub saxlamışdır. Bu inkişafın davam etdirilməsində və qarşıya qoyulan vəzifələrin icrasında Sizə və muxtar respublika əhalisinə uğurlar arzulayır, çıxışımı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıram: ***"Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, tutduğumuz yoldan dönməyəcək və daim irəli gedəcəyik".***

Sağ olun!

## Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında

## Naxçıvan Muxtar Respublikasının

## Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası gəlirlər üzrə 86 794 879 manat, xərclər üzrə 354 466 625 manat məbləğində olmaqla təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 iyun 2019-cu il*

## “Muxtariyyətin bəhrələri: Naxçıvanda elm və təhsil” mövzusunda elmi konfrans



Naxçıvan Müəllimlər İnstitutunda Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunan “Muxtariyyətin bəhrələri: Naxçıvanda elm və təhsil” mövzusunda keçirilən elmi konfransın plenar iclasını institutun rektoru, dosent Elbrus İsayev açıb. Rektor bildirib ki, 2019-cu il yanvarın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinin qeyd edilməsi ilə bağlı Tədbirlər Planı təsdiq olunub. Tədbirlər Planının icrası istiqamətində ötən dövr ərzində müxtəlif səpkili tədbirlər keçirilib, aparılan işlər Naxçıvanın muxtariyyət tarixinin daha dərindən araşdırılaraq öyrənilməsi və gənc nəslə aşılanmasına böyük imkanlar açıb.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Muxtariyyət illərində Naxçıvanda elmin inkişafına dövlət qayğısı” mövzusundakı çıxışında bildirib ki, ulu öndər Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra xalqımızın ictimai-siyasi, milli-mənəvi və mədəni həyatında keyfiyyətcə yeni bir mərhələ başlanıb, həyatın bütün sahələrində, o cümlədən elmin, təhsilin inkişafı istiqamətində məqsədyönlü addımlar atılıb. Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq elmi-tədqiqat qurumlarının fəaliyyətini gücləndirmək, mövcud elmi potensialdan səmərəli istifadə etmək, diyarın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə ulu öndər Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamına əsasən AMEA Naxçıvan Bölməsinin yaradılması muxtar respublikada elmin daha da inkişaf etməsinə əlverişli şərait yaradıb.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin elmin, təhsilin və mədəniyyətin inkişafı istiqamətində apardığı fədakar iş müəyyən olunmuş dövlət siyasətinin uğurla həyata keçirilməsinə səbəb olub. Elmi-tədqiqat və ali təhsil müəssisələrinin tədqiqatları üçün ən yaxşı təchiz edilmiş şöbə və laboratoriyalar yaradılıb.

Vurğulanıb ki, elmin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin nəticəsində 1998-2018-ci illərdə muxtar respublikada fəaliyyət göstərən tədqiqatçılardan 182 nəfəri fəlsəfə doktoru, 24 nəfəri isə elmlər doktoru dissertasiyası müdafiə edib. Hazırda muxtar respublikada 43 elmlər doktoru, 300-dən çox fəlsəfə doktoru fəaliyyət göstərir. Azərbaycan Milli Elmlər Akademiyasına 2003, 2007, 2014 və 2017-ci illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 12-si müxbir üzv seçilib.

Elmi konfransda Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov “Muxtar respublikada təhsil quruculuğu: tarixi və müasir vəziyyəti” mövzusunda çıxış edərək qeyd edib ki, müstəqillik illərinin ilk dövründən başlayaraq yeni inkişaf yoluna qədəm qoyan muxtar respublikamızda müasir təhsil modeli formalaşdırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsil sahəsini prioritet istiqamət elan etməsi, bu sahəyə çox böyük əhəmiyyət verməsi təhsil həyatının yüksəlişinə səbəb olub, muxtar respublikanın şəhər, rayon və kəndlərində 200-dən çox təhsil müəssisəsi üçün müasir binalar tikilib, ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan 5500-dən artıq kompüter və 600-dən artıq elektron lövhə quraşdırılıb. Laboratoriyalar və fənn kabinələri şagirdlərin istifadəsinə verilib, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin edilib.

Vurğulanıb ki, 2010-cu ildən gənc kadrlar üçün stimullaşdırıcı tədbirlərin tətbiq edilməsi, 2018-ci ildən müəllimlərin müsabiqə yolu ilə işə qəbulu, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 20 iyun tarixli Sərəncamına əsasən sentyabrın 1-dən diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqqının 20 faiz artırılması muxtar respublikada müəllim peşəsinə və əməyinə verilən yüksək qiymətin, müəllimlərin maddi rifahlarının yaxşılaşdırılmasına göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Elmi konfransda Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov “Naxçıvan Dövlət Universiteti muxtariyyətin bəhrəsidir” və “Naxçıvan” Universitetinin rektoru, professor İsmayıl Əliyev “Naxçıvanda ali təhsil: dünən və bu gün” mövzularında çıxış ediblər.

Sonra Naxçıvan televiziyasının hazırladığı “Naxçıvanda elm və təhsil” televiziya filmi nümayiş etdirilib, Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunan sərgiyə baxış olub.

Elmi konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

✍ **Nail ƏSGƏROV**

## Vəzifələr icra edilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya may ayında keçirilən imtahanlarda obyektivliyin və şəffaflığın tam təmin edilməsini, eləcə də qarşıda duran vəzifələrin icrasını diqqətdə saxlamışdır.*

Komissiyanın Test mərkəzində 13-18 may tarixlərdə Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün test imtahanları keçirilmişdir. Test imtahanlarında iştirak etmək üçün 120 nəfər sənəd təqdim etmiş, onlardan 109-u test imtahanında iştirak etmiş və 85-i müvafiq keçid balını toplamışdır.

27-31 may tarixlərdə gömrük orqanlarında vakant olan vəzifələrin tutulması üçün test imtahanları keçirilmiş, iştirak edən 175 namizəddən 85-i müvafiq keçid balını toplamışdır. Komissiya tərəfindən müvafiq dövlət orqanlarının müraciətləri nəzərə alınmaqla vakant şöbə müdiri və sektor müdiri vəzifələrinin tutulması üçün 4 nəfərin iştirakı ilə test imtahanları keçirilmişdir.

May ayında komissiya tərəfindən dövlət qulluğu, vergi, eləcə də müəllimlərin işə qəbulu üçün təşkil edilmiş hazırlıq kurslarında 164, sınaq imtahanlarında 117 nəfər iştirak etmişdir. Ötən ay “Ümummilli lider Heydər Əliyevin milliləşmə siyasəti, Azərbaycançılıq ideologiyası və dövlət qulluqçuları qarşısında duran vəzifələr” mövzusunda maarifləndirici seminar keçirilmişdir. Seminarda inzibati vəzifələrə təyin olunmuş 88 dövlət qulluqçusu iştirak etmişdir.

Ay ərzində ehtiyat kadrlarla işin təşkili diqqətdə saxlanılmış, ehtiyat kadrlar siyahısında olan 13 namizəddən 1-i vakant vəzifəyə təyin olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 136-cı teatr mövsümünün bağlanış mərasimi olub. Teatr mövsümü Cəlil Məmmədquluzadənin əsərləri əsasında hazırlanmış “Ölülər və dəlilər” tamaşası ilə başa vurmuşdur.*

## 136-cı teatr mövsümünün bağlanışı olub



Tamaşanın nümayişindən əvvəl Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova çıxış edərək Naxçıvan teatrının keçdiyi tarixi inkişaf yolundan danışıb. Qeyd edilib ki, ümummilli lider Heydər Əliyev Naxçıvan teatrı ilə həmişə maraqlanıb və onun fəaliyyətinə yüksək qiymət verib.

Vurğulanıb ki, müstəqillik illərində Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənib, kollektiv milli dəyərlərimizin daşıyıcısına çevrilib. Teatrımızın müstəqillik illərində hazırladığı tamaşalar yaradıcılıq axtarışlarının nəticəsi və tarixi mövzulara marağın göstəricisidir.

Nazir bildirib ki, teatrımız repertuar zənginliyini daim diqqət mərkəzində saxlayır, klassik və çağdaş dramaturgiyamızın dəyərli nümunələrindən, dünya klassiklərinin əsərlərindən tamaşalar hazırlayır.

Muxtar respublikada teatr sənətinə bağlı insanların əməyi də daim dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Üç əsrin şahidi olan Naxçıvan teatrı həmişə xalqa xidmət etmiş, mütərəqqi ideyaların daşıyıcısı və təbliğatçısı olmuşdur, – deyən Natavan Qədimova qeyd edib ki, milli oyanış və dirçəlişin carçısı olan Naxçıvan teatrı bundan sonra da milli ruhu yaşadacaq, dövlətçiliyə xidmət edəcək əsərləri səhnəyə gətirməklə, mənəvi-estetik prinsipləri əsas götürməklə, dövlət və xalq birliyinin sarsılmazlığını əks etdirən tamaşalarla insanları sevindirəcəkdir.

Nazir çıxışının sonunda göstərilən böyük diqqət və qayğıya görə mədəniyyət və incəsənət işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə dərin minnətdarlığını bildirib.

Sonra “Ölülər və dəlilər” tamaşası göstərilib. Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov ədibin “Ölülər”, “Anamın kitabı”, “Dəli yığıncağı” və “Ər” pyeslərini bir mövzu üzərində birləşdirərək maraqlı tamaşa yaratmağa nail olub.

Tamaşada bu 4 pyesdəki obraz və personajların bir çoxu ilə rastlaşırıq. “Ölülər və dəlilər” tamaşasında Azərbaycan Respublikasının Xalq artisti Həsən Ağasoy, Azərbaycan Respublikasının Əməkdar artistləri Tofiq Seyidov, Əli Əliyev, Bəhruz Haxverdiyev, Əbülfəz İmanov və teatrın gənc yaradıcı qüvvələri də rol alıblar. Tamaşanın quruluşçu rejissorları, Azərbaycan Respublikasının Əməkdar artistləri Tofiq Seyidov, Nurbəniz Niftəliyeva, quruluşçu rəssamı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Ariz Ağayevdir.

**Əli RZAYEV**

*“Ailə təsərrüfatları ili” – 2019*

## Ailə təsərrüfatlarının sığorta etdirilməsi uğurlu biznesə zəmanət verir

*Müasir iqtisadiyyatın prioritetləri sırasında bölgələrdə yerli imkanlar hesabına daha çox məhsul istehsalına nail olunması mühüm yer tutur. Bu baxımdan muxtar respublikamızın müxtəlif bölgələrində ailə təsərrüfatları yaradılması yolu ilə davamlı özünüməşğulluğun bərqərar olunması diqqət mərkəzində saxlanılır. Ailə təsərrüfatlarının inkişafı istiqamətində onların kütləvi olaraq sığortaya cəlb olunması da bu sahənin davamlı fəaliyyəti üçün dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi tədbirlərin bir hissəsidir.*





Əhali məşğulluğunun artırılması və daxili bazarın rəqabətqabiliyyətli məhsullarla təmin olunmasındakı əhəmiyyəti nəzərə alınaraq 2019-cu il muxtar respublikamızda “Ailə təsərrüfatları ili” elan olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı” 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən muxtar respublikada ailə təsərrüfatlarının sahələr üzrə ixtisaslaşması və yeni ailə təsərrüfatlarının yaradılması dəstəklənir. Bu sərəncamın tələblərinə uyğun olaraq dövlət tərəfindən ailə təsərrüfatlarının fəaliyyətlərinin stimullaşdırılması üçün ardıcıl tədbirlər görülür. Şübhəsiz, bu zaman ailə təsərrüfatlarının və onların istehsal etdiyi məhsulların sığortası məsələsi də öz aktuallığını ortaya qoyur. Belə ki, məhdud maliyyə resursları ilə əhatə olunmuş ailə təsərrüfatlarının gözlənilməz bədbəxt hadisələrlə üzləşdiyi zaman məruz qaldığı maddi zərərlərin əvəzinin ödənilməsi onların davamlı fəaliyyətlərinin təmin olunması və kiçik sahibkara çevrilmələri baxımından vacib məsələlərdəndir.

Ailə təsərrüfatları çoxşaxəli fəaliyyət məkanıdır. Eyni zamanda belə təsərrüfatlar fəaliyyət profili cəhətdən də sərbəstdirlər. Bazarın tələblərinə cəld uyğunlaşan ailə təsərrüfatları daha təşəbbüskar bir xarakter ortaya qoymaqla iqtisadiyyatın çoxşaxəliliyi üçün əhəmiyyətini bir daha göstərirlər. Əkinçilik, bağçılıq, heyvandarlıq, quşçuluq və arıçılıq üzrə ərzaq məhsullarının istehsalı, emalı, qablaşdırılması və satışı ilə məşğul olan ailə təsərrüfatlarının fəaliyyətləri zamanı yaranan müxtəlif gözlənilməz hadisələr isə onların sahiblərinə ciddi maddi zərərlər vura bilər. Ailə təsərrüfatları belə riskli, gözlənilməz hadisələrdən sığorta olunmaqla bu problemləri aradan qaldırır və onların davamlı inkişafına zəmanət verirlər.

Müasir iqtisadiyyatın istənilən sahəsində olduğu kimi, ailə təsərrüfatları da hər yerdə rast gəlinən təbii, texnogen və insan amili qaynaqlı gözlənilməz hadisələr nəticəsində maddi itkilərə məruz qalırlar. Quraqlıq, sel, dolu, fırtına, güclü külək kimi əlverişsiz hava şəraiti, zəlzələ, ildırım vurması, torpaq sürüşməsi kimi dağıdıcı təbiət hadisələri baş verdikdə insanlar bundan zərər görür və yaxud biznes təhlükə altına düşür. Hər bir insanın özünün başına gələ biləcək qəfil hadisələr də onun həyat və sağlamlığına təhlükə yaradır. Odur ki, Naxçıvan Muxtar Respublikasında minə yaxın ailə təsərrüfatının mövcud olduğu və onlara hərtərəfli köməklik göstərildiyi bir dövrdə sığorta zəmanətinin də verilməsi mühüm əhəmiyyətli məsələ kimi diqqəti cəlb edir. Bu qədər sayda ailə təsərrüfatı sahiblərinin, habelə onların istehsal etdikləri məhsulların və tabeliklərində olan kənd təsərrüfatı texnikası və emal avadanlıqlarının vaxtında sığortalanması, şübhəsiz, onların daha çox uğur qazanması üçündür. Başqa sözlə, ailə təsərrüfatları başçıları və onlarla birgə fəaliyyət göstərən digər insanların həyat və sağlamlığını, onlara məxsus olan bina, daşınmaz əmlak, nəqliyyat vasitəsi, iribuynuzlu və xırdabuynuzlu heyvanlarını, quşlarını, arı ailələrini, əkin sahələrini sığorta etdirmələri zəruridir. Çünki hər hansı ailə təsərrüfatı qəfil, gözlənilməz hadisələrdən zərər çəkən zaman ödənilən sığorta məbləği qurulmuş biznesin davamlı inkişafına şərait yaradır.

Hazırda sığorta fəaliyyəti ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında özünün inkişaf mərhələsindədir. Yaradılmış hərtərəfli şəraitdən bəhrələnərək icbari və könüllü formada aparılan sığorta işləri, bağlanılan müqavilələr, son nəticədə, insanların rifahı, onların sosial müdafiəsinə xidmət edir. Ailə təsərrüfatları da cəmiyyətin sosial-iqtisadi həyatında, əhali məşğulluğunda və innovativyönümlü yeni iqtisadi layihələrin yaranıb genişlənməsində mühüm əhəmiyyətli təcrübə kimi öz təsdiqini tapıb. Belə təsərrüfatların dəstəklənməsi və kütləvi olaraq sığortaya cəlb olunması onların da gələcək uğurları üçün mühüm zəmanət verir.

✍ **Əli CABBAROV**

Yurdumuzun nemətləri

# Naxçıvanın dərdlərə dərman meyvəsi – tut

***Uşaq ikən ən sevimli məşğuliyyətimizdən biri həyətdə, bağda əkilən tut ağaclarının altına toplaşmaq, çırpılan tutdan dadmaq və küləyin xəfif əsintisi ilə ağac altına sərilən tutları toplamaq idi. Toplayırdıq, çünki bizim əvəzedilməz qış azuqələrimizdən biri məhz tut olurdu. Çox sevirdik qışda bir yerə yığılıb tut qurusu ilə cəviz yeyərək şirin-şirin söhbət etməyi. Hətta deyərdim ki, qışboyu süfrəmizdən tut-çərəz əskik olmaz, evə gələn qonaqlar da xoşluqla nübar edərdilər. Bəlkə, elə bu xüsusiyyətlərinə görə qədim zamanlardan tutu evə xeyir-bərəkət gətirən nemət, tut ağacını isə müqəddəs hesab ediblər. Tut ağacı əsrlərlə yaşamaq, bir neçə nəsli də öz kölgəsi altına toplayıb böyütmək qüdrətinə malik idi. Qədimdə tut ağaclarına sitayiş edər, ona nəzir gətirər, qarşısında qurban kəsərdilər.***

"Tut" sözü qədim türk dilində də yurd, düşərgə, məskən anlamlarını ifadə edirdi. Vaxtilə ibtidai insanlar onun meyvəsilə qidalanır, kölgəsində dincəlir, möhkəm budaqlarından silah, oduncağından yanacaq kimi, sonralar isə qopuz, saz düzəltmək üçün istifadə ediblər.

Tut bitkisi həm də müalicə vasitəsi kimi geniş şəkildə istifadə olunub. Belə ki, böyük təbib İbn Sina tut meyvəsindən hazırlanmış məhsullardan bir çox xəstəliklərin müalicəsində uğurla istifadə edib.

Tutun meyvələri xüsusi müalicəvi



əhəmiyyətə malik olmaqla, şəkərli maddələrlə, vitaminlərlə, qiymətli turşularla və bir çox mineral elementlərlə zəngindir. Ondan indi də təzə halda və emal olunmuş şəkildə geniş istifadə edilir. Tutdan bəkməz, mürəbbə, şirə, sirkə, şərab, araq, cem, marmelad, xoşab və sair hazırlanır. Eyni zamanda tut bitkisinin müxtəlif növlərindən bəzək bağçılığında, parkların, xiyabanların, küçələrin və müxtəlif müəssisələrin həyətlərinin, ərazilərinin yaşıllaşdırılmasında uğurla istifadə edilir.

Doğma diyarımız Naxçıvanda tutçuluq ən qədim vaxtlardan çox geniş yayılıb. Ondan yalnız meyvəçilik deyil, ipəkçilik məqsədilə istifadə edilib. Tarixi mənbələrə əsasən Naxçıvanda hələ eramızdan 3-5 min il əvvəl tut bitkisi becərilib. 1960-70-ci illərdə bu bitkidən, xüsusilə baramaçılıqda geniş istifadə olunub, tut yarpaqları baramaqurdunun yemlənməsində əvəzsiz nemət olub. Vaxtilə Naxçıvan baraması, ipəyi qiymətli sərvət olmaqla, dünya bazarlarında geniş şöhrət qazanıb.

Həmsöhbət olduğumuz Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov bildirir ki, dadlı, min bir dərdin dərmanı olan tutun yetişdiyi torpağı müqəddəs, orada yaşayanları isə xoşbəxt hesab etmək olar. Muxtar respublikamızda bu qiymətli bitkinin ağ, qara və qırmızı növləri geniş yayılıb. Onlardan ağ və qara tut, demək olar ki, bütün bölgələrdə yetişir. Tut ağacları, əsasən, qumlu, çınqıllı torpaqlarda, su arxlarının kənarlarında, bol günəşli yerlərdə daha yaxşı inkişaf edir. Qara tut düzəngahlarda və dağətəyi ərazilərdə də bar verə bilir.

Tut növlərindən xartut ən dəyərli və faydalı hesab olunur. Tarixən hesab edilib ki, xartutu yalnız yaşlı, şan-şöhrətli və ləyaqətli həyat sürmüş hörmətli adam əkə bilər. İnanca görə, tut əkən şəxs ona öz ruhunu verir və tut ağacı onu əkən insanın ömrünü ala bilər. Bu səbəbdən də xartutu çox vaxt adi tut ağacına qələm etməklə alırdılar. İndi də ağac həvəskarları ağ tutla qara tutu, eləcə də onlara müxtəlif növdə meyvə və tərəvəz calaq etməklə bir neçə növdə məhsul ala bilirlər. Ağ tut iyun-iyul, qara tut isə iyul-avqust aylarında yetişir. Ağ tutun meyvəsi yetişdikdə özü qoparaq yerə tökülür. Bu səbəbdən onu hər 2-3 gündən bir çırpırlar. Xartutun saplağı isə kifayət qədər möhkəm olur və onu budaqdan qoparmaq lazım gəlir. Həddindən artıq şirin olan bu meyvədə şəkərin miqdarı 22 faizə çatır. Tutun yarpaqlarının da müalicəvi əhəmiyyəti olduqca böyükdür. Onun çayı şəkərli diabetdən əziyyət çəkən, ürək xəstəlikləri olanlar üçün, eləcə də qəbizliyə, soyuqdəyməyə əlac sayılır. Ağ tutun yarpaqlarından alınan tinktura (spirtli maye) ürək-damar xəstəliklərinin müalicəsində müsbət nəticə verir.

Tutdan hazırlanan doşab (bəkməz) isə xüsusilə qiymətlidir. Heç bir şəkər əlavəsi olmayan bu qaynadılmış şirə yalnız ağ tutdan hazırlanır və orqanizmə çox faydalıdır.

Bu yaxınlarda yolumu Ordubad rayonundan saldım. Öyrəndim ki, burada 50-yə yaxın meyvə və bitkidən konsentrat, doşab və mürəbbə hazırlayan Natiqə Əliyeva adlı bir xanım var. Yazacağım yazı üçün ideal müsahibi tapmışdım. Onunla həmsöhbət olmaq üçün yollandım yaşadığı ünvana. Məni gülərüz və qonaqpərvərliklə qarşılayıb evə dəvət etdi. Söhbət zamanı öyrəndim ki, təsərrüfatında yetişdirdiyi meyvələrdən, həmçinin topladığı dərman bitkilərindən doşab və mürəbbələr hazırlayır. Bu dəfə o, məni tut doşabının hazırlanma mərhələsi ilə tanış etdi. Natiqə xala dedi ki, doşab hazırlamaq elə də asan iş deyil. Bu şirə bəzən 9-10 saat ocaq başında nəzarət tələb edir. Onu hazırlamaq üçün yaxşı yetişmiş tut ağacları çırpılır. Toplanmış meyvə ocaqda suyu çıxanadək bişirilir. Bişmiş meyvələr kisələrə yığılaraq ağzı bərk bağlanır. Həmin kisələrin üzərinə ağır daşlar qoyulur ki, suyu sıxılaraq süzülsün. Alınan təmiz şirə zəif alov üzərində lazımi dərəcədə qaynadılır (bu zaman şirənin rəngi qaralır). Qaynadığı zaman, xüsusilə də ocağın altı gur yanarsa, daşmasın deyə dayanmadan qarışdırılır. Onun üzünə yığılan köpüklər də atılmır, bir boşqaba yığılıb istifadə edilir. Doşabın hazır olduğunu onu qaşıqla boşqab üzərinə damızdırmaqla bilmək olar. Doşab sap kimi süzülərək qaba damcılayırsa, deməli, artıq hazırdır. Sonda sıxılıb suyu süzülən tut gün altında qurudularaq toyuq-cücəyə verilir. Qalan şirə isə bir balona yığılır, ağzı örtülməklə bir neçə gün kölgə yerdə saxlanılır.



Doşab təbii şirinləşdirici kimi həm un məhsullarına vurulur, həm də ondan desert kimi istifadə olunur. Xalq təbabətində doşabdan qankəsici, soyuqdəymənin qarşısını alan təbii vasitə, qaraciyərin, mədənin, ürək-damar sisteminin müalicəsində, boğaz ağrılarında, onkoloji xəstəliklər zamanı, mədə ağrılarında istifadə edilir, o cümlədən qanazlığından əziyyət çəkən insanlar üçün də əsl dərmandır.

Natiqə Əliyevanın ağ, qara və xartutdan bişirdiyi mürəbbələr qonum-qonşuda adla deyilir. Müsahibim onu da deyir ki, ağbirçək nənələrimiz tut yarpağını həm də şorabaların üzərinə qoyarlar ki, qoxunu çəksin. Tutun körpə yarpaqlarından dolma, bir çox yerlərdə, hətta kətə də bişirilir.

Natiqə xalagilin divarbir qonşusu bizim şirin söhbətimizə müdaxilə edərək Azərbaycanın milli meyvəsi sayılan tutun yarpağı, budağı, oduncağı da çox qiymətlidir, – deyə əlavə etdi. Onun ağırlığından, çalarlarından və parıltısından mebellərin, məişət və bəzək əşyalarının hazırlanmasında istifadə edilir. Hər şeydən əvvəl, saz, tar, balaban kimi milli musiqi alətlərimizin hazırlanmasında tut ağacından istifadə olunur. Zurna və balaban bütünlükdə, sazın çanağı, tarın qolu, nağaranın isə gövdəsi tut ağacından hazırlanır. Tutun yarpaqları ilə bəslənilən baramadan yüksəkkeyfiyyətli ipək lif alınır və bu da toxuculuq sənayesi üçün qiymətli xammal hesab edilir. Qızım, Ordubadda belə bir deyim var ki, tut yarpağını qoyun yesə süd, arı yesə bal, tırtıl yesə ipək verər.

İlin bu vaxtında tut çırpmaq da bir ayrı mərasimdir. Adətən, tutu günəşin daha az olduğu səhər və axşamçağı çırparlar. Çırpılmış tut evlərin damında, həyətlərdə günəşli yerdə qurutmaq üçün parça üzərinə sərilir. Xarab olmaması üçün şüşə qablara yığılıb saxlanılan quru tutdan hər bir evdə ilboyu istifadə edilir, xüsusən də qışda çay süfrələrimizi bəzəyir. Tut qurusu ən faydalı meyvə qurularından hesab edilir. Tərkibi kalsium B1, B2 və C vitaminləri ilə zəngin olan bu quru meyvə qanı artırır, bağırsaq qurdlarını tökür, ürək-damar sistemi, ağız və boğaz iltihabı, diş əti xəstəlikləri üçün də faydalıdır.

Nənəmlə söhbətlərimizdə həmişə deyərdi ki, bir vaxtlar tut ağacları çörək ağacı olub. Müharibənin çətin illərində tut qurusu və tut meyvəsi insanları aclığın girdabından xilas edib. Quru çörək və doşab bütün günün əsas yeməyi olub.

İndi də muxtar respublika sakinləri tutçuluqla məşğul olur, ondan əldə edilən məhsulu isə bazarda asanlıqla sata bilirlər. Bu yalnız ehtiyac üçün yox, həm də öz ata-babalarından qalan ənənələri davam etdirmək və gələcək nəsillərə ötürmək üçündür.

*Mən də düşünürəm ki, mürəbbəsindən bəkməzinə, arağından sirkəsinə məişətimizdə özünə səssiz-sədasız yer tutan, gövdəsiylə saz olub xalq mahnılarında dilə gələn, yarpağıyla çaya həyat verən, dadından doymaq olmayan tut hələ əsrlərlə bundan sonra da bizim üçün qiymətli sərvət olaraq qalacaqdır.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

Sağlam həyat tərzi

# Uşaqlarda tərbiyənin inkişafında idmanın rolu

*Ölkəmizdə həyata keçirilən mühüm tədbirlərdən biri də gənclərin sağlam ruhda böyüməsi, fiziki tərbiyə işinin düzgün qurulması, bədən tərbiyəsi və idmanın gündəlik məişətə daxil edilməsidir. Çünki birmənalı şəkildə demək olar ki, idmanla məşğul olmaq uşaq, yeniyetmə və gənclərin fizioloji və psixoloji sağlamlığı üçün əvəzsiz vasitələrdən biridir. Bunlar bir-biri ilə sıx əlaqədədir. Gənclərimizin qarşısında isə fiziki və mənəvi tərbiyə kimi yüksək bir məqsədin qoyulması yuxarıda qeyd edilənlərin ən yaxşı şəkildə yerinə yetirilməsini təmin etməkdir.*





Muxtar respublikamızda da gənclərin bədən tərbiyəsinə və idmana kütləvi şəkildə cəlb olunmasında məqsəd fiziki cəhətdən hərtərəfli inkişaf etmiş, sağlam və Vətənin müdafiəsinə hazır olan, çətinliklərdən qorxmayan fəal cəmiyyət qurucuları yetişdirməkdir. Bu, onların hər bir çətinliyi aradan qaldırmağa qadir olan güclü, çevik və davamlı fərd kimi hazırlanması deməkdir. Adətən, bunu tərbiyənin əsas vəzifələrindən (beş hərəkət keyfiyyəti – qüvvə, sürət, dözümlülük, çeviklik və çəldlik) biri kimi də qiymətləndirirlər.

Uşaqların fiziki tərbiyəsi məsələləri müxtəlif sosial, psixoloji və digər amillərlə şərtlənir. Fiziki tərbiyə ilə bağlı iş müntəzəm və məqsədyönlü aparılarsa, onun keyfiyyət və səmərəsi xeyli yüksək olar. Cəmiyyətdə hər bir fərd fiziki tərbiyənin sağlamlıq və sosial əhəmiyyətini uşaqlara anlaşılan şəkildə başa salarsa, uşaqların idmana olan münasibəti də müsbət yöndə dəyişər. Araşdırmalar göstərir ki, uşağın idmana münasibətinin hansı səviyyədə olmasını yoxlamaq üçün müşahidə və müsahibədən istifadə daha məqsədəuyğundur. Bununla yanaşı, uşağın fiziki hərəkətləri yerinə yetirməsində valideynlər də maraqlı olmalıdırlar. Mütəxəssislər hesab edirlər ki, valideynlər övladlarına elə təsir göstərməlidirlər ki, onların idmana maraqları yüksək olsun: uşağın yerinə yetirdiyi fiziki hərəkətlərin düzgünlüyündən və ya səhvliyindən asılı olmayaraq, onu həvəsləndirməlidirlər. Bu zaman ailə şəraitində fiziki tərbiyənin inkişafına maneə qalmayacaq. Eyni zamanda bu sahədə hər hansı bir tapşırığı yerinə yetirərkən uşağın ustalığı təkmilləşir, nəticədə, yeni bacarıq, vərdişlər qazanır.

İdman uşaqlarda tərbiyənin inkişafına necə təsir göstərir? Araşdırmalar göstərir ki, idman:

- uşağın özünə olan güvəninin, mənlik dəyərinin artmasını təmin edir;
- uşaqlarda liderlik bacarığı formalaşdırır. Bu isə hər bir şəxsin həyatında önəmlidir və başqaları ilə qurduğu münasibətlər onda liderlik xüsusiyyətini inkişaf etdirir. Komanda oyunlarında bu, özünü xüsusilə göstərir;
- uşaqda müsbət xarakterik xüsusiyyətlərin formalaşmasını təmin edir. Məsələn, voleybol, basketbol oyunu uşaq üçün təkcə topa vurmaq deyil, eyni zamanda bu oyunu oynamağa başlayarkən uşaqda qaydalar, bölüşmək, münasibət qurmaq, vaxtdan səmərəli istifadə etmək kimi keyfiyyətlər formalaşır;
- uşaqlarda daha rahat dostluq qurmaq bacarığını inkişaf etdirir;
- uşaqların fiziki görünüşlərinə də təsiri çoxdur;
- fiziki qabiliyyətin hərtərəfli kamilliyinə, sağlamlığın möhkəmliyinə yönəldilmiş orqanizmin forma və funksiyasının ahəngdar inkişafını təmin edir.

Bütün bunlar isə gənclərin fiziki cəhətdən normal inkişafına nail olmaq, onlarda güc, davamlılıq, çeviklik və hərəkət cəldliyini tərbiyə etmək baxımından əhəmiyyətlidir.

Ümumiyyətlə, gənclərə düzgün və dürüst biliklər vermək, onlarda həm ümumi – təbii hərəkətlər (yerimək, qaçmaq, alət tullamaq və sair), həm də xüsusi bədən tərbiyəsi hərəkətləri etmək (idmanın müxtəlif növləri, hərəkətli oyunlar, xüsusi gimnastika hərəkətləri), bacarıq və vərdişləri formalaşdırmaq üçün uşaqlıqdan müəyyən keyfiyyətlərə yiyələnmək lazımdır və mümkündür.

Həyat üçün zəruri olan hərəkət bacarığının, vərdişlərin və xüsusi biliklərin təşəkkülü idmançılarda həm də mənəvi və iradi keyfiyyətləri – vətənpərvərlik, mərdlik, iradə, təşəbbüskarlıq, cəsurluq və qətiyyət kimi amilləri də formalaşdırır.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 433